*G.Axundova. Heydər Əliyev irsi üzrə tarix aspektli akademik araşdırmalar müstəqil dövlətçilik tariximizin öyrənilməsi mənbələrindən biri kimi // Əlyazmalar yanmır, 2023, №1 (16), s. 8-13.*

UOT: 930.85; 94(479.24)

**Güllər Axundova**
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: guler.axundova@mail.ru*

# HEYDƏR ƏLİYEV İRSİ ÜZRƏ TARİX ASPEKTLİ AKADEMİK ARAŞDIRMALAR MÜSTƏQİL DÖVLƏTÇİLİK TARİXİMİZİN ÖYRƏNİLMƏSİ MƏNBƏLƏRİNDƏN BİRİ KİMİ

**Xülasə**

Tədqiqat işində Ümummilli lider Heydər Əliyev irsinə dair müxtəlif alim və tədqiqatçıların fundamental elmi-nəzəri araşdırmaları təhlilə cəlb olunur. Xalqımızın milli sərvəti olan Ulu öndərin zəngin və əbədi irsinin sistemli tədqiqi, öyrənilməsi və təbliği sahəsində Azərbaycan tarix elmi qarşısında duran qlobal, ümummilli və ümumdövlət əhəmiyyətli vəzifələr ətraflı şərh edilir. Müəllif tərəfindən Heydər Əliyevin nəzəri və dövlətçilik irsinin, çoxaspektli fəaliyyətinin araşdırılması sahəsində görülmüş mühüm tədqiqat işləri sistemləşdirilir. Bununla da, dahi rəhbərin zəngin irsi əsasında müstəqil Azərbaycan dövlətçilik tarixinin elmi əsaslarla öyrənilməsi üçün mühüm mənbə bazası təbliğ olunur. Ümummilli liderin fəaliyyətinin, nəzəri-siyasi baxışlarının müxtəlif aspektlərini özündə əks etdirən müxtəlif sanballı əsərlər araşdırılır.

***Açar sözlər:*** *siyasət, müasir tarix, hüquqi dövlət, milli məfkurə, ictimai mühit, vətəndaş cəmiyyəti, akademik tədqiqat*

## Giriş

*Azərbaycan Respublikasının Prezidenti, rəşadətli ordumuzun müzəffər Ali Baş Komandanı İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilmişdir. Bu tarixi əhəmiyyətli sənəddə deyilir: "Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Müstəqil Azərbaycan Ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir" [4]. Təsadüfi deyildir ki, bu şərəfli missiyanın yerinə yetirilməsi məqsədilə Ümummilli liderin zəngin tarixi-nəzəri irsi, dövlətçilik fəaliyyəti və inkişaf strategiyası haqqında bugünədək yüzlərlə əsər çap olunmuşdur.*

*Ulu öndər Heydər Əliyevə həsr olunmuş publisistik səpkidəki əsərlərlə yanaşı, akademik araşdırmalar dahi rəhbərin çoxcəhətli nəzəri və əməli fəaliyyətinin kompleks şəkildə elmi əsaslarla öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə ölkəmizin əsas elmi mərkəzi olan Azərbaycan Milli Elmlər Akademiyasının bundan sonra (AMEA)*

*tədqiqat müəssisələrində, xüsusilə də, Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunda Ümummilli liderin həyat və fəaliyyətinə həsr olunmuş fundamental tədqiqat işləri diqqəti cəlb edir. Bu istiqamətdə institutda 2009-cu ildə "Əliyevşünaslıq" şöbəsinin yaradılması və onun fəaliyyəti xeyli maraq doğurur. Çünki burada ilk dəfə olaraq Ulu öndərin tarixi irsi, dövlətçilik nəzəriyyəsi, inkişaf konsepsiyası, çoxşaxəli siyasi və dövlətçilik fəaliyyətinin bütöv sistem halında, akademik tələblər səviyyəsində öyrənilməsinə başlanılmışdır. Beləliklə, dahi rəhbərin zəngin irsi üzrə akademik araşdırmaların müstəqil dövlətçilik tariximizin öyrənilməsi mənbələri kimi onların təhlilinə həsr olunmuş bu tədqiqat işi mühüm aktuallıq kəb edir.*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsi və təbliğində Əliyevşünaslıq elmi məktəbinin yaradıcılarından biri, görkəmli tarixçi-alim, Əməkdar elm xadimi, dövlət mükafatı laureatı, akademik Yaqub Mahmudovun çoxşaxəli elmi fəaliyyətinin mühüm rolu vardır. Alimin "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" və "Heydər Əliyev ideyalarının zəfər yürüşü" adlı monumental monoqrafiyalarında [1, s.4] və çoxsaylı elmi məqalələrində Ulu öndərin zəngin dövlətçilik irsi və ictimai-siyasi fəaliyyəti dərindən təhlil olunaraq, bu dahi şəxsiyyətin fenomenal cəhət və xüsusiyyətləri çoxsaylı faktlarla ilk dəfə sistemli şəkildə araşdırılaraq geniş ictimaiyyətə təqdim edilmişdir.

Akademikin "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" (2002) monoqrafiyası genişmiqyaslı əsaslandırılmış fəaliyyət fonunda görkəmli siyasi və dövlət xadimi Heydər Əliyev dühasının Azərbaycanın tarixi taleyindəki əvəzsiz rolunun işıqlandırılmasına həsr olunmuşdur. Monoqrafiyada Ulu öndərin çoxşaxəli fəaliyyəti tutarlı dəlillərlə, məntiqi ardıcıllıqla çox parlaq şəkildə təqdim edilmişdir. Kitabın dəyərli cəhətlərindən biri müəllifin Ümummilli liderin ictimai-siyasi və dövlətçilik fəaliyyətinə bütöv tariximiz fonunda nəzər salmasıdır. Əsərdə Heydər Əliyev şəxsiyyətinin nurlu əməlləri, həyata keçirdiyi böyük quruculuq işləri, islahatlar, dövlətçilik tarixindəki xilaskarlıq missiyası, diplomatiya tarixində həyata keçirdiyi yeniliklər yurdumuzun və xalqımızın beş minillik tarixi fonunda həqiqətən, daha aydın görünür. Fumdamental monoqrafiyada müəllifin irəli sürdüyü fikirləri konkret faktlarla əsaslandırması tarixşünaslığımızda həm məzmun baxımından, həm də dövrləşdirmə cəhətdən mühüm addım, Əliyevşunaslıq elmində yenilik hesab olunmalıdır.

Əsərin müxtəlif bölmələrində Ulu öndərin böyük və nüfuzlu dövlət xadimi kimi Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, inkişaf strategiyasının müəyyənləşdirilməsi, hüquqi dövlət və demokratik vətəndaş cəmiyyəti quruculuğu sahəsində atdığı addımlar hərtərəfli təhlil olunur və müəllif tərəfindən yüksək qiymətləndirir. Alim doğru və haqlı şəkildə milli tarixşünaslığımızda ilk dəfə olaraq Heydər Əliyevi Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin əsasını qoyan siyasi lider kimi səciyyələndirir.

Həqiqətən, akademik Y.Mahmudovun "Heydər Əliyev ideyalarının zəfər yürüşü" (2011) adlı monoqrafiyası alimin bu istiqamətdə göstərdiyi zəhmətkeş və çoxşaxəli fəaliyyətinin davamı olaraq Əliyevşünaslığa son dərəcə qiymətli bir töhfədir. Bu dəyərli əsərdə xalqımızın Ümummilli liderinin zəngin dövlətçilik irsi və ictimai-siyasi fəaliyyəti, dahi şəxsiyyətin müstəqil Azərbaycan dövlətinin qorunması və inkişafı istiqamətində misilsiz xidmətləri tutarlı faklarla hərtərəfli işıqlandırılır. Müəllifin bu tədqiqat əsəri həm zaman kəsiyi etibarilə, həm də ictimai həyatın bütün sahələrini əhatə etmək baxımından ona qədər Heydər Əliyev haqqında yazılmış kitablardan əsaslı şəkildə fərqlənir. Belə ki, burada Əliyevşünaslıq elmində ilk dəfə olaraq Ulu öndərin timsalında xalqımızın tarixi və taleyi ilə bağlı böyük problemlər qaldırılır və onlar fəal düşüncə hədəfinə çevrilməklə ətraflı təhlil obyektinə çevrilir. Əsəri səciyyələndirən əsas məziyyət müəllifin göstərilən dövrdə ayrı-ayrı tarixi proseslər və hadisələrə münasibət bildirərkən Ümummili liderin konseptual müddəalarını diqqət mərkəzinə çəkməsi və keçmişimizə qiymət verərkən həmin məqamları əsas götürməsidir.

"Heydər Əliyev ideyalarının zəfər yürüşü" monoqrafiyasının çox mühüm elmi əhəmiyyət kəsb edən səciyyəvi xüsusiyyətlərindən biri də Azərbaycan Respublikası Prezidenti İlham

Əliyevin Ulu öndərin siyasi kursunun müvəffəqiyyətlə davam etdirilməsi istiqamətində ardıcıl və prinsipial fəaliyyətinin geniş və əhatəli şəkildə əks etdirilməsidir. Akademik bu əsərində cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti dövründə dinamik, sosial-iqtisadi inkişaf yoluna çıxan Azərbaycanın regionun lider dövlətinə çevrilməsi prosesini ardıcıl izləyir, paralel aparılan siyasi və iqtisadi islahatların uğurlu nəticələrini təhlil edir, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının həyata keçirilməsi istiqamətində böyük quruculuq və abadlıq işlərini qiymətləndirir. Həmçinin, milli təəssübkeşlik fəaliyyəti fonunda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində cənab Prezidentin çoxşaxəli fəaliyyətini, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun davamlı olaraq artması və s. məsələləri zəngin faktlar əsasında araşdıraraq oxucuya təqdim edir.

Beləliklə, hər iki sanballı əsər akademik Y.Mahmudovun Ümummilli lider Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsi sahəsində apardığı zəngin tədqiqatların, çap etdirdiyi çoxsaylı kitab və məqalələrin məntiqi nəticəsi kimi Azərbaycan tarix elminin inkişafına mühüm töhfə olmaqla yanaşı, Əliyevşünaslıqda irəliyə doğru mühüm addım hesab edilə bilər.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda Əliyevşünaslıq şöbəsinin alimlərinin çoxillik elmi tədqiqatlarının nəticəsi olaraq 2013-cü ildə Ulu öndərimizin həyat və fəaliyyətini əks etdirən ikicildlik fundamental monoqrafiya çap edilmişdir. Xüsusi vurğulamaq lazımdır ki, "Heydər Əliyev" ikicildliyi [3] dahi şəxsiyyətin ömür yolunun akademik tələblər səviyyəsində araşdırılması sahəsində ilk uğurlu addım kimi diqqəti cəlb edir. Yeni elmi baxışı ifadə edən bu qiymətli tədqiqat əsəri çoxsaylı və zəngin mənbələr əsasında yazılmışdır. Monoqrafiyanın strukturu Ümummilli liderin siyasi fəaliyyətinin iki ictimai-siyasi mərhələdə: sovet dövrü və müstəqillik dövrünə uyğun olaraq müəyyən edilmişdir.

Kitabın ilk cildində xalqımızın dahi oğlunun uşaqlıq və gənclik illərindən başlayaraq 1987-ci ilə qədər olan dövrdə ictimai-siyasi fəaliyyəti təfərrüatı ilə oxucuların diqqətinə çatdırılır. Əsərdə Ulu öndərin hüquq-mühafizə orqanlarında çalışdığı dövr, Azərbaycan KP MK-nın birinci katibi kimi respublikanın inkişafı və tərəqqisi naminə göstərdiyi genişmiqyaslı fəaliyyəti və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi gərgin əməyi müfəssəl şəkildə geniş ictimaiyyətə tədqim olunur.

"Heydər Əliyev" monoqrafiyasının ikinci cildi 1987-2003-cü illəri əhatə edən tariximizin ən məsuliyyətli mərhələsində dahi şəxsiyyətin fəaliyyətindən bəhs edilir. Burada Heydər Əliyevin Naxçıvan MR-ə rəhbərliyi dövrü, Azərbaycan Respublikasının siyasi lideri kimi xalqımız üçün taleyüklü ictimai-siyasi fəaliyyətinin ilk mənbələr əsasında təqdim olunması xüsusi əhəmiyyət kəsb edir. Fundamental tədqiqat əsərində Ümummilli liderin siyasi xəttinin davamçısı, cənab İlham Əliyevin prezident kimi fəaliyyətə başladığı ilk günlərdən həyata keçirdiyi qətiyyətli tədbirlər, imzaladığı hüquqi sənədlər dərindən təhlil olunur, ölkəmizin ictimai həyatının bütün sahələrində qazanılmış böyük nailiyyətlər zəngin faktlar kontekstində hərtərəfli şərh edilir.

Tədqiqatın mövzusuna uyğun olaraq AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyevin 2013-cü ildə çapdan çıxmış "Heydər Əliyev siyasi tarixdə və günümüzdə" monoqrafiyası [5, s.3] da Əliyevşünaslıq elminin qiymətli nailiyyətlərindən biri hesab oluna bilər. Kitab görkəmli dövlət xadiminin şəxsiyyəti və siyasəti, müstəqil dövlətçilik təlimi, milli tarix konsepsiyası haqqında yazılmış mükəmməl elmi-tədqiqat əsəri kimi dəyərli mənbədir. Elmi fəaliyyətinin böyük bir hissəsini xalqımızın Ümummilli liderinin həyatı və siyasi fəaliyyətinin tədqiqinə həsr etmiş akademikin uzun illərdən bəri apardığı axtarışların nəticəsi kimi meydana çıxan bu kitab müstəqil elm sahəsinə çevrilmiş Əliyevşünaslıq xəzinəsini zənginləşdirəcək çox sanballı bir tədqiqat əsəridir. Əsərdən gəlinən qənaət bir daha təsdiq edir ki, İ.Hacıyev Əliyevşünas alimlərin sırasında ön sırada dayanan tədqiqatçılardandır.

Kitabla tanış olarkən açıq-aydın görmək mümkündür ki, müəllif Ulu öndərin çox zəngin həyatı və siyasi fəaliyyətinin əsas məqamlarına nüfuz etməyi bacarmış, dahi şəxsiyyət haqqında bitkin və tamamlanmış tədqiqat əsəri yaza bilmişdir. Monoqrafiyanın "Heydər Əliyev şəxsiyyəti

və siyasəti" adlanan ilk fəslində müəllif Ümummilli liderin şəxsiyyətini öyrənilməmiş bir dünya kimi dəyərləndirmiş, onu müstəqil Azərbaycan dövlətinin memarı, dünya miqyaslı siyasətçi kimi səciyyələndirmiş, görkəmli dövlət xadiminin siyasi fəaliyyətində türk dünyası məsələlərini və türk dünyasının iki nəhəng şəxsiyyətinin – Mustafa Kamal Atatürk və Heydər Əliyevin tarixi missiyalarında oxşarlığını təhlil obyektinə çevirmişdir. Bu fəslin mütaliəsi oxucuya Ulu öndərin şəxsiyyətinin, siyasi fəaliyyətinin heç də hamıya məlum olmayan məqamları ilə tanış olmaq, dünyanın aparıcı dövlət rəhbərlərinin, görkəmli diplomatların və başqa görkəmli şəxsiyyətlərin fikirləri ilə xalqımızın böyük oğluna əcnəbilərin gözü ilə baxmaq, haqlı olaraq qürur hissi keçirmək imkanı verir.

Əsərin ikinci fəslini "Heydər Əliyevin dövlətçilik təlimi"nə həsr edən müəllif burada Ümummilli liderimizin elm və təhsil siyasətindən bəhs etmiş, onun dövlətçilik təlimində milli-mənəvi dəyərlərin yeri və gənclər siyasətindən geniş söhbət açmışdır.

"Heydər Əliyev: tarix və tarixi günlər" adlanan üçüncü fəsildə isə akademik, ilk növbədə, Ulu öndərin milli tarix konsepsiyasını ön plana çəkmiş, onun milli-tarixi yaddaşın bərpasında rolunu şərh etmiş, tariximizə diqqət və qayğının ifadəsi kimi Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolunun qiymətləndirilməsindən söz açmış, dahi rəhbərin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından bəhs etmişdir.

Monoqrafiyanın "Heydər Əliyev və Naxçıvanın inkişaf strategiyası"na həsr olunmuş dördüncü fəslində müdrik siyasətçinin tərcümeyi-halına nəzər salınmış, həyatın və fəaliyyətinin Naxçıvan dövrünə (22 iyul 1990-9 iyun 1993-cü illər) xüsusi yer ayrılmışdır. Burada Heydər Əliyev və Naxçıvan tarixi məsələləri, onun Naxçıvanda elmin inkişafındakı rolu və Naxçıvanın xilaskarı kimi xarakterizə edilməsi əsərin əsas cəhətlərindən biri kimi diqqəti cəlb edir.

Nəhayət, əsərin sonuncu, "Heydər Əliyev ideyaları Azərbaycanın uğurlarının əsasıdır" adlanan beşinci fəslində aparılan təhlillər nəticəsində Ümummilli liderin ideyalarının, irsinin, onun hazırladığı inkişaf strategiyasının respublikamızın dayanıqlı inkişafının əsası olduğu qənaətinə gəlinmişdir. Burada həmçinin, Ulu öndərimizin Yeni il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən ətraflı bəhs olunmuş və bu müraciət "Azərbaycanın tarixi salnaməsi" kimi dəyərləndirilmişdir. Monoqrafiyanın "Nəticə" hissəsində akademik İsmayıl Hacıyev qeyd edir: "Heydər Əliyevin idarəetmə keyfiyyətləri, qarşıya çıxan ən çətin vəzifələrdən optimal yol seçmək bacarığı, qibtəediləsi dəmir iradəsi, iti ağlı, yüksək intellekti, geniş dünyagörüşü... Onu dünya miqyaslı siyasətçiyə çevirmişdir" [5, s.3].

Beləliklə, əsərdə mövzular kompleks şəkildə tədqiqata cəlb olunmuş, konseptuallıq kəsb edən məsələlər axıcı dillə təhlil edilmişdir. Kitabda tarixi faktlarla yanaşı, müasir inkişafımızın bünövrəsini təşkil edən Heydər Əliyev ideyalarının nəticələri vurğulanmışdır.

Akademikin bu mövzuda elmi araşdırmalarının davamı olaraq 2023-cü ildə Ümummilli liderin 100 illiyinə həsr olunmuş yeni altı fəsildən ibarət "Heydər Əliyev siyasəti: tarix və müasirlik" adlı monoqrafiyası nəşr olunmuşdur. Kitabda dahi şəxsiyyətin böyüklüyünə, fenomen keyfiyyətlərinə nəzər salınır, onun ideyaları və siyasətinin Azərbaycanın uğurlarının əsası olduğu göstərilir. Əsərin "Ön söz"ündə xalqımızın Ulu öndərinin Azərbaycanın tarixində, hərtərəfli inkişafında, ölkənin xaos və anarxiyadan xilasında, dünya birliyində öz layiqli yerini tutmasında müstəsna xidmətləri oxucuların nəzərinə çatdırılır.

Əsərin "Heydər Əliyev şəxsiyyəti və siyasəti" adlanan ilk fəslində qüdrətli siyasət və dövlət xadiminin fenomenal keyfiyyətlərindən bəhs olunur. Onun iti ağlı, polad iradəsi, güclü məntiqi təfəkkürü, möhkəm yaddaşı, uzaqgörənliyi, ən əsası, çətin məqamlarda atdığı cəsarətli addımlar ölkənin işıqlı sabahının, türk dünyasının qarşılıqlı əlaqələrinin möhkəmlənməsinin qarantı kimi səciyyələndirilir.

Növbəti fəsil Ümummilli liderin Azərbaycana qayıdışından, Naxçıvanın milli-azadlıq hərəkatının mərkəzinə çevrilməsindən, onun təşəbbüsü ilə Naxçıvan MSSR Ali Sovetinin qəbul etdiyi tarixi qərarlardan, habelə Azərbaycan SSR Ali Sovetindəki tarixi çıxışlarında toxunduğu vacib məsələlərə həsr olunub.

Fundamental monoqrafiyanın "Heydər Əliyevin dövlətçilik təlimi" başlıqlı üçüncü fəslində uzaqgörən liderin dövlətçilik təlimi və onun tərkib hissələri önə çəkilir. Dahi liderin dövlətçilik təlimində elmin, təhsilin, mədəniyyətin, milli mənəvi dəyərlərin özünəməxsus və əhəmiyyətli yeri diqqətə çatdırılır. Hələ ölkəyə rəhbərliyinin ilk dövründə Ulu öndərin erməni ərazi iddalarının fakt və dəlillərlə əsassızlığını sübut etməsindən, vətən torpağının hər qarışı üçün mübarizəsindən ətraflı bəhs edilir.

Dördüncü fəsil "Heydər Əliyev: tarix və tarixi günlər" adlanır və burada dahi şəxsiyyətin milli tarix konsepsiyası, eləcə də tarixi yaddaşımıza əsaslanan, dövlətçiliyimizə və milli birliyimizə xidmət edən əlamətdar günlərlə bağlı imzaladığı mühüm tarixi sənədlər öz əksini tapıb.

"Heydər Əliyev və Naxçıvanın inkişaf strategiyası" adlanan növbəti fəsildə Ümummilli liderin Naxçıvana, bölgənin tarixinə, burada elmin inkişafına bəxş etdiyi töhfələrdən, AXC-Müsavat hakimiyyətinin Naxçıvana dair siyasətinin iflasından danışılır. Ulu öndərin fəaliyyətində Naxçıvan və onun ərazi bütövlüyü məsələsinin mühüm yer tutduğu diqqətə çatdırılır, diyarın görkəmli yetirmələri barədə müfəssəl məlumat verilir.

Nəhayət, monoqrafiyanın "Heydər Əliyev ideyaları Azərbaycanın uğurlarının əsasıdır" başlıqlı sonuncu fəslində respublikamızın dayanıqlı inkişafı istiqamətində Heydər Əliyevin müəyyənləşdirdiyi sağlam təməllər, uzaqgörən siyasət əsasında onun yolunu davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən görülən uğurlu işlər təqdir olunur.

Beləliklə, akademik İ.Hacıyevin bu əsəri böyük siyasi şəxsiyyət Heydər Əliyevin zəngin irsini əks etdirən mühüm tarixi hadisə və materialların öyrənilməsi və obyektiv qiymətləndirilməsi baxımından əhəmiyyətli mənbə hesab etmək yerinə düşər.

Təhlilə cəlb etdiyimiz bütün bu əsərlər XX əsrdə Azərbaycan tarixində böyük rol oynamış, geniş və hərtərəfli fəaliyyəti ilə respublikamızın ictimai-siyasi həyatında əsaslı dönüş yaratmış Ümummilli liderimizin irsinin elmi-publisist tədqiqatlardan elmi-nəzəri təhlillərə doğru inkişafın monoqrafik səviyyədə göstəriciləridir. Bu fundamental tədqiqatların təhlili sübut edir ki, Heydər Əliyev tarixçi-dövlət xadimi olduğundan Azərbaycan tarixi haqqında, eləcə də digər sahələr barədə onun hər bir çıxışı, bəyanatı, addımı elmi əsaslara köklənmişdir. Bu baxımdan, Ulu öndərin çıxışları, nitqləri, müsahibələri, məruzələri və s., həm də elmi əsərdir və onun irsinə elmi yanaşma başqa elmi nəticələrin əldə olunmasına da zəmin yaradır. Zəngin və dərin tarixi və fəlsəfi biliyə malik olan Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı, həm də Azərbaycan tarixi elminin dahi nəzəriyyəçisi idi [2, s.4]. O, milli tariximizin düzgün araşdırılması və təbliğ olunmasına, onun bütün səhifələrinin təhriflərdən təmizlənməsinə böyük diqqət yetirmişdir. Ümummilli lider çoxşaxəli intellektual fəaliyyəti ilə milli tarix elmini zənginləşdirmiş, onun başlıca problemləri və qarşıda duran vəzifələri ilə bağlı konseptual fikirlər irəli sürmüşdür.

**Nəticə**

*Tədqiqatın yekunu olaraq belə bir nəticəyə gəlmək olar ki, Ulu öndər Heydər Əliyev irsinə dair aparılmış akademik elmi tədqiqat işlərinin nəticələri dahi rəhbərin müstəqillik dövründə Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə ölkəmizin sosial-iqtisadi, mənəvi və mədəni tərəqqisi naminə göstərdiyi çoxşaxəli fəaliyyəti və tarixi xidmətlərinin geniş mənzərəsini əks etdirir. Tarixçi alimlərin böyük zəhməti, səmərəli axtarışları nəticəsində ərsəyə gətirilmiş fundamental əsərlər Ümummilli liderin şəxsiyyətinə, onun çoxaspektli siyasi-dövlətçilik fəaliyyətinə layiq tədqiqat işləri olmaqla Əliyevşünaslığın, bütövlükdə tarix elminin inkişafında mühüm töhfələr kimi səciyyələndirilə bilər. Xalqımızın milli sərvəti olan Ulu öndərin zəngin və əbədi irsinin sistemli tədqiqi, öyrənilməsi və təbliği sahəsində Azərbaycan tarix elmi qarşısında duran qlobal, ümummilli və ümumdövlət əhəmiyyətli vəzifələrin həll olunduğu bu akademik araşdırmalar, sözsüz ki, Azərbaycanın müasir dövlətçilik tarixinin öyrənilməsində vacib və*

*əhəmiyyətli mənbələr kimi dəyərlidir. Bu şərəfli tariximizi dərindən mənimsəmək və təbliğ etmək məqsədilə qeyd olunan mənbələrə müraciət etmək və onlardan istifadə zəruridir. Təqdirəlayiq haldır ki, hazırda Ümummilli liderimizin nəzəri və əməli irsini əhatə edən əsərlər üzərində elmi-tədqiqat işləri uğurla həyata keçirilir. Bütün bunlar əminliklə deməyə əsas verir ki, alimlər üzərlərinə götürdükləri ağır yükün məsuliyyətini dərindən dərk edir və formalaşmış elmi potensial bu şərəfli missiyanı gələcəkdə də inamla davam etdirəcəkdir.*

**Ədəbiyyat siyahısı:**

1. Həbibbəyli, İ. Azərbaycan Heydər Əliyevşünaslığı: nailiyyətlər və vəzifələr// Azərbaycan. – 2019. – 7 may. – S.1; 4.
2. Hüseynova, L. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri: müstəqillik dövrü/ L.Hüseynova, elmi red. Y.Mahmudov. – Bakı: Təhsil, – 2011. – 2016 s.
3. Qasımov, Ə. Coşqun fəaliyyətin elmi salnaməsi: [Elektron resurs]/ "Azərbaycan" qəzetinin rəsmi internet səhifəsi. – URL: https://www.azerbaijan-news.az/posts/detail/cosqun-fealiyyetin-elmi-salnamesi-40152
4. Orucəliyev, R. Heydər Əliyev irsinin qorunduğu və təbliğ olunduğu məkan: [Elektron resurs]/ "Şərq qapısı" qəzetinin rəsmi internet səhifəsi. – URL: https://serqqapisi.gov.az/xeberler/ heyder-eliyev-irsinin-qorundugu-ve-teblig-olundugu-mekan
5. Səfərli, H. Əliyevşünaslığa dəyərli töhfə// Şərq qapısı. – 2013. – 4 may. – S.3.

**Guller Akhundova**

**Independent academic research on Heydar Aliyev's history as one of the learning sources of our state history**

The fundamental scientific-theoretical studies of various scientists and researchers on the legacy of the national leader Heydar Aliyev are involved in the analysis in research work. In the field of systematic research, study and promotion of the rich and eternal heritage of the great leader, which is the national wealth of our people, the global, national and state-wide important tasks facing the science of history of Azerbaijan are explained in detail. The author systematizes the important research works done in the field of investigation of Heydar Aliyev's theoretical and statehood heritage, multifaceted activity. With this, based on the rich heritage of the genius leader, an important source base for the scientific study of the history of independent Azerbaijan statehood is promoted. Various works reflecting various aspects of the national leader's activities and theoretical and political views are examined.

***Key words:*** *politics, modern history, legal state, national ideology, public environment, civil society, academic research.*

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Nigar Babaxanova** tərəfindən çapa tövsiyə olunmuşdur.